**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ГЮНАЙ САЛМАН гызы КЯЗИМОВА**

# РОЛЬ ВЗАИМООТНОШЕНИЙ В КОЛЛЕКТИВНОЙ АДАПТАЦИИ ДЕТЕЙ МЛАДШЕГО ШКОЛЬНОГО ВОЗРАСТА

6104.01-Педагогическая психология

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по психологии**

**Баку – 2014**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**GÜNAY SALMAN QIZI KAZIMOVA**

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN KOLLEKTİVƏ ADAPTASİYASINDA QARŞILIQLI MÜNASİBƏTLƏRİN ROLU

6104.01 – Pedaqoji psixologiya

**Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyasının**

**A V T O R E F E R A T I**

**Bakı - 2014**

İş Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Psixologiya və yaş fiziologiyası şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya üzrə elmlər doktoru, professor
**Ramiz İbrahim oğlu Əliyev**

Rəsmi opponentlər: pedaqogika üzrə elmlər doktoru, professor **Sərdar Musa oğlu Quliyev**

psixologiya üzrə fəlsəfə doktoru
**Hökümə İmran qızı Əliyeva**

Aparıcı təşkilat: **Azərbaycan Müəllimlər İnstitutunun Psixologiya kafedrası**

Müdafiə "29___" "__11___" 2014-cü ildə saat "___" da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2014 - cü ildə göndərilib.

FD 02.014 Dissertasiya şurasının elmi katibi

psixologiya üzrə fəlsəfə doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövrdə təhsil sistemində şagirdlərin mənimsəmə imkanlarının artırılması, təlimdə müvəffəqiyyət əldə etməsi ilə yanaşı onların məktəb həyatına, həmyaşıdları ilə münasibətlərə, məktəb kollektivinə adaptasiyası da aktual problemlərdən biri kimi özünü göstərir.

Son dövrlərdə aparılmış tədqiqatlar göstərir ki, bir çox hallarda şagirdlərin təlimdə müvəffəqiyyət qazana bilməməsinin əsas səbəbləri heç də onların idrak qabiliyyətlərinin inkişafının tələb olunan səviyyədə olmaması ilə bağlı deyildir. Bunun başlıca səbəblərindən biri onların təlim prosesinə və məktəb kollektivinə uğurla adaptasiya oluna bilməmələri ilə bağlıdır.

Cəmiyyətdə gedən dinamik dəyişikliklər, təhsildə ciddi islahatların aparılması, yeni öyrənmə modellərinin və kurikulumun tətbiqi şagirdlərin bu prosesə çevik adaptasiya olunmasını tələb edir. Təlim prosesində adaptasiyanın uğurla həyata keçməsi üçün kiçikyaşlı və məktəbəqədər uşaqların bu prosesə hazırlanması vacibdir.

Nəzərə almaq lazımdır ki, adapatsiya prosesi müvəffəqiyyətlə həyata keçdikdə təlim və şəxsiyyətlərarası münasibətlər müsbət istiqamətə yönəlir, şagirdlərin mənimsəmə imkanları yüksəlir. Bu baxımdan kiçikyaşlı məktəblilərin kollektivə adaptasiyasında qarşılıqlı münasibətlərin rolunun araşdırılması olduqca aktualdır.

Məktəb kollektivinə adaptasiyanın uğurla həyata keçməsi şagirdlərin həyata hazırlanmasında və özünü adekvat gerçəkləşdirməsində mühüm əhəmiyyətə malikdir. Aparılmış tədqiqatlar göstərir ki, kiçikyaşlı məktəblilərin kollektivə adaptasiyasında qarşılıqlı münasibətlərin rolu müxtəlif aspektlərdən öyrənilsə də, pedaqoji aspektdən sistemli şəkildə öyrənilməmişdir.

Digər tərəfdən isə təhsil sistemi təhsil alanların dövlətin marağına xidmət etməyi bacaran, milli və ümumbəşəri dəyərləri mənimsəyən, öyrəndiklərini tətbiq etməyi, bazar münasibətləri şəraitində cəmiyyətin məhsuldar üzvünə çevrilə bilən şəxsiyyətlər kimi formalaşmasını birinci dərəcəli vəzifə olaraq irəli sürür. Bu isə ilk növbədə şagirdlərin məktəb kollektivinə və təlimə müvəfəqiyyətli adaptasiyası nəticəsində mümkün olur. Bütün bunlar isə şagirdin mənəvi dünyasının, motivasiya-tələbat sahəsinin zənginləşməsini, yeni məzmunda qurulmasını, eləcə də onların məktəb kollektivinə adaptasiyasında ortaya çıxan problemlərin aradan qaldırılmasını zəruri edir. Məhz belə şəraitin yaradılması fonunda şagirdlərin təlimdə müvəffəqiyyət qazanması üçün ilkin şəraitin mövcudluğundan danışmaq olar.

Qeyd olunanları nəzərə alıb "Kiçikyaşlı məktəblilərin kollektivə adaptasiyasında qarşılıqlı münasibətlərin rolu" mövzusunu tədqiqat obyekti kimi seçməyi məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi.**Şəxsiyyətin formalaşdırılması, tərbiyəsi, qarşılıqlı münasibətlər sistemi, mühitə adaptasiyası uzun müddətdir ki, tədqiqatçıların diqqətini cəlb etmiş, problemin müxtəlif aspektləri tədqiq edilmişdir. Xarici ölkə psixoloqları (V.Kessel, Q.Forverq, Z.Freyd, K.Xorni, Q.Xibş, Q.Şreder, M.Şerif, İ.Bojoviç, L.Vıqotski, Y.Kolominski, İ.Kon, A.Leontyev, A.Petrovski, S.Rubinşteyn və b.) eləcə də, Azərbaycan psixoloqları (B.H.Əliyev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, Ə.Ə.Qədirov, K.R.Əliyeva, R.İ.Əliyev, M.Ə.Həmzəyev, S.İ.Seyidov, Q.E.Əzimli, N.M.Muxtarova, S.M.Quliyev və b.) öz tədqiqatlarında problemi ümumnəzəri, qarşılıqlı münasibətlər və yaş xüsusiyyətləri aspektindən öyrənmişlər.

Problemi pedaqoji kollektivdə qarşılıqlı münasibətlər kontekstində (L.Bojoviç, Y.Kolominski, L.Slavina, A.Zaporojes, D.Elkonin, E.Lukaş, E.Smirnova, D.Feldşteyn və b.), kiçik məktəblilərin kollektivə adaptasiyasının psixoloji məsələləri (B.H.Əliyev, Ə.Ə.Əlizadə, Ə.S.Bayramov, Ə.Ə.Qədirov, M.Ə.Həmzəyev, R.İ.Əliyev, Ş.Y.Abdullayeva, Ü.A.Əfəndiyeva və b.) aspektində də tədqiq edilmişdir. Bu tədqiqat işlərində problemin müxtəlif aspektləri öyrənilsə də, konkret olaraq kiçikyaşlı məktəblilərin kollektivə adaptasiyasında qarşılıqlı münasibətlərin rolu məsələləri tədqiqat obyektinə çevrilməmişdir. Bununla yanaşı qeyd etmək lazımdır ki, cəmiyyət həyatının yeniləşməsi istər təhsilin, istərsə də şəxsiyyətin formalaşdırılması baxımından qarşıya yeni vəzifələr qoyur, təhsilin humanistləşdirilməsi şəraitində pedaqoji prosesdə şagird təlim fəaliyyətinin subyekti kimi qəbul edilir. Konkret olaraq bu o deməkdir ki, təlim fəaliyyətinin müvəffəqiyyəti, hər şeydən öncə şagirdin şəxsi fəallığından asılıdır. Şagirdin təlim müvəffəqiyyəti, eləcə də şəxsiyyət kimi formalaşması onun məktəb həyatına, pedaqoji prosesə ilk günlərdən necə adaptasiya olunmasından çox asılıdır. Göründüyü kimi, kiçik məktəblilərin təlim fəaliyyəti, qarşılıqlı münasibətləri, kollektivə adaptasiyası problemi müxtəlif aspektlərdən onların fəaliyyət prosesində qarşılıqlı münasibətləri, qarşılıqlı münasibətlərdən asılı olaraq pedaqoji kollektivə adaptasiya olunması problemi kifayət qədər öyrənilməmişdir. Bu da problemin aktual olduğunu və onun tədqiqinin vacibliyini diqqət mərkəzinə gətirir.

**Tədqiqatın obyekti** kiçikyaşlı məktəblilərin kollektivə adaptasiyasında qarşılıqlı münasibətlərin təzahür xüsusiyyətləridir.

**Tədqiqatın predmetini** kiçikyaşlı məktəblilərin kollektivə adaptasiyasında qarşılıqlı münasibətlərin psixoloji mexanizmlərinin ayırd edilməsi və bu münasibətlərin qurulmasına təsir göstərən amillərin öyrənilməsi təşkil edir.

**Tədqiqatın məqsədi** kiçikyaşlı məktəblilərin yaşıdları, valideynlər, müəllimlərlə qarşılıqlı münasibətlərinin psixoloji xüsusiyyətlərini araşdırmaq və onların kollektivə adaptasiyasında bu münasibətlərin rolunu aydın-

laşdırmaq, adaptasiya zamanı ortaya çıxan çətinliklərin aradan qaldırılmasının yol və vasitələrinin müəyyənləşdirilməsindən ibarətdir.

**Tədqiqatın fərziyyəsi.** Kiçik məktəblilərin məktəb kollektivinə adaptasiyasında qarşılıqlı münasibətlərin formalaşması bir sıra amillərlə yanaşı, ailə tərbiyəsinin xarakterindən, uşağın məktəbə psixoloji cəhətdən hazırlıq səviyyəsindən, məktəb haqqında təsəvvürlərindən, fəaliyyət motivinin istiqamətlərindən və fərdi-psixoloji xüsusiyyətlərindən də asılıdır.

**Tədqiqatın vəzifələri.** Tədqiqat işində qarşıya qoyulmuş əsas məqsədə nail olmaq üçün bir neçə konkret vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- Problemlə bağlı psixoloji-pedaqoji ədəbiyyatın təhlili əsasında məsələyə yanaşmanın nəzəri aspektlərinin araşdırılması, tədqiqat işinə kömək edəcək əsas ideya, fikir və mülahizələrin müəyyənləşdirilməsi;
- Kiçik məktəblilərin kollektivə adaptasiyasının psixoloji xüsusiyyətlərinin öyrənilməsi və bu prosesdə qarşılıqlı münasibətlərin rolunun aydınlaşdırılması;
- Kiçik məktəblilərin kollektivdə statusunun onların qarşılıqlı münasibətlər sisteminə təsirinin araşdırılması;
- Kiçik məktəblilərin təlim fəaliyyəti ilə kollektivə adaptasiyası arasındakı qarşılıqlı vəhdət və asılılığın müəyyənləşdirilməsi;
- Kiçik məktəblilərin qarşılıqlı münasibətləri və kollektivə adaptasiyasının düzgün yol və vasitələrinin tapılması.

**Tədqiqatın metodoloji əsasları və metodları.** Tədqiqatın metodoloji əsasını şəxsiyyətin münasibətlər sisteminin, mühitə adaptasiyasının əsasını təşkil edən psixoloji nəzəriyyələr, xüsusən də pedaqoji psixologiyada qarşılıqlı münasibətlər və pedaqoji kollektivə adaptasiya ilə bağlı irəli sürülmüş elmi-nəzəri müddəalar təşkil edir.

Tədqiqatda sosiometriya, eksperiment, anket sorğusu, ekspert qiymətləndirilməsi və müşahidə metodlardan istifadə olunmuşdur. Tədqiqat Tovuz rayonu Bozalqanlı və Elxan Məmmədov adına 2№ li kənd orta məktəblərində, həmçinin, Gəncə şəhəri M.Ə.Sabir adına 5№ li, İsmət Qayıbov adına 1№ li, A.S.Puşkin adına orta məktəblərdə aparılmışdır. Tədqiqata 96 nəfər sinif müəllimi, 849 nəfər şagird, 257 nəfər valideyn cəlb olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi**. Respublikamızda müasir dövrdə ilk dəfə olaraq kiçik məktəblilərin kollektivə adaptasiyasında qarşılıqlı münasibətlərin rolu tədqiq olunmuş, bu sahədə aparılmış tədqiqatlar sistemləşdirilmiş, kiçik məktəblilərin kollektivə adaptasiyasına maneə olan amillər müəyyən edilmişdir.

İlk dəfə olaraq bu işdə:

- Kiçik məktəblilərin yaşıdları ilə qarşılıqlı münasibətləri və təlim

fəaliyyəti arasındakı asılılıq öyrənilmiş;

- Kiçik məktəblilərin kollektivə adaptasiyasında mühüm rol oynayan amillər üzə çıxarılmış, ona mənfi təsir göstərən səbəblər öyrənilmiş, birgə fəaliyyət prosesində qarşılıqlı münasibətlər, bu prosesdə qarşılaşdıqları çətinliklər və onun aradan qaldırılması yolları müəyyənləşdirilmişdir.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- Kiçik məktəblilərin təlim prosesinə, eləcə də digər fəaliyyət növlərinə cəzbedicilik, əyləncə elementləri daxil etdikdə daha yaxşı səmərə verir, onların kollektivə adaptasiyasında və qarşılıqlı münasibətlərinin qurulmasında mühüm rol oynayır;

- Kiçik məktəblilərin davranış qaydaları və əxlaqi dəyərlər haqqında pozitiv təsəvvürləri tərbiyəedici funksiya daşımaqla yanaşı, onların davranışında, ünsiyyətində özünü biruzə verən müəyyən qüsurları korreksiya edilməsində müsbət rol oynayır və sosial normaları mənimsəməyə kömək edir.

- Kollektivdə yaşıdları ilə qarşılıqlı münasibətlərini adekvat qura bilməyən şagird ya özü kollektivdən uzaqlaşır, ya da yoldaşları ondan imtina edirlər ki, bu da şagirddə istər-istəməz mənfi keyfiyyətlər formalaşdırır, emosional empatiyanın inkişafının qarşısını alır, təlim müvəffəqiyyəti aşağı düşür.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Respublikamızda gedən ictimai-siyasi, ideoloji, iqtisadi dəyişikliklər təhsil sistemində aparılan islahatlar təlim-tərbiyə işinin yeni məzmunda qurulmasını zəruri edir. Bu isə şagirdlərin münasibətlər sisteminə qoşulmasında, özünüdərk prosesində, idrak fəallığının inkişafında, davranışında öz əksini tapır. Bu baxımdan tədqiqatda əldə edilmiş nəticələrdən kiçik məktəblilərin qarşılıqlı münasibətlərinin, onların kollektivə adaptasiyasının öyrənilməsi, bu zəmində təlim-tərbiyənin səmərəliliyinin artırılmasının effektiv yollarının müəyyənləşdirilməsinə zəmin yaradır. Əldə olunmuş biliklər pedaqoji psixologiyanı yeni elmi müddəalarla zənginləşdirir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqatda əldə olunan nəticələrdən kiçik məktəblilərin qarşılıqlı münasibətlərinin düzgün qurulmasında, onların kollektivə adaptasiyasının təmin edilməsində, təlim-tərbiyə işinin səmərəliliyinin yüksəldilməsində geniş istifadə oluna bilər. Pedaqoji kollektivdə müsbət psixoloji iqlimin yaradılmasında, konfliktlərin həll edilməsində, uşaqların məktəbə psixoloji hazırlığının təşkilində, müəllimlər üçün elmi-metodik tövsiyələrin hazırlanmasında, yaş və pedaqoji psixologiya fənlərinin tədrisində istifadə oluna bilər.

**Tədqiqat nəticələrinin aprobasiyası**. Tədqiqatın nəticələri Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Psixologiya və yaş fiziologiyası şöbəsinin elmi seminarlarında, müxtəlif elmi-praktik konfranslarda mə-

ruzə və çıxışlarda müzakirə edilmişdir. Dissertasiyanın müddəaları çap olunmuş məqalə və tezislərdə öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə səviyyəsi təhlil olunur, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, fərziyyəsi müəyyənləşdirilir, metodları və metodologiyası, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, eləcə də, müdafiəyə təqdim olunan müddəalar qeyd olunur.

Dissertasiyanın**"Problemin pedaqoji-psixoloji mahiyyəti və tədqiqinin əsas istiqamətləri"**adlanan I fəsli üç yarımfəsildən ibarətdir. Bu fəslin **"Kiçik məktəblilərin qarşılıqlı münasibətləri probleminin ədəbiyyatda qoyuluşu"** adlanan birinci yarımfəslində kiçik məktəblilərin qarşılıqlı münasibətləri və ünsiyyətinin məzmunu, mahiyyəti, yaş xüsusiyyətlərindən irəli gələn səciyyəvi cəhətlər araşdırılır, müxtəlif psixoloji məktəblərin, ayrı-ayrı görkəmli psixoloqların mövqeyi şərh olunur. Göstərilir ki, şəxsiyyətin formalaşmasında, eləcə də şagirdlərin kollektivə adaptasiyasında onların təbii imkanları, daxili tələbatları ilə xarici amillərin birgə təsiri mühüm rol oynayır. İnsan fəaliyyət sahəsindən asılı olmayaraq birgə iş prosesində başqalarının istək, arzu və tələbatlarına uyğun davranır, bununla da öz tələbatlarını ödəmiş olur.

Pedaqoji-psixoloji ədəbiyyatın təhlilindən aydın olur ki, qarşılıqlı münasibətlər sistemi, müxtəlif fəaliyyət sahələrində şəxsiyyətlərarası münasibətlər müxtəlif aspektlərdə öyrənilmişdir. Amerika psixoloqu C.Moreno problemin öyrənilməsində sosiometriyadan istifadə etməklə qrup üzvlərinin qrupdakı mövqeyini müəyyənləşdirmişdir.

Kiçik məktəblilərin qarşılıqlı münasibətləri və kollektivə adaptasiyasının mahiyyətinin dərk olunmasında onun yalnız obyektiv tərəfinin təhlil edilməsi kifayət etmir. Eyni zamanda fəaliyyətin mənbəyi olan daxili mövqeyin (subyektiv) öyrənilməsi də vacibdir.

Bir sıra psixoloqlar (A.N. Leontyev, S.L. Rubinşteyn, D.İ. Feldşteyn və b.) göstərirlər ki, psixoloji münasibət şəxsiyyətin keyfiyyət göstəricilərinə təsir göstərməklə subyekt-subyekt münasibətlərini müəyyənləşdirir, qarşılıqlı münasibətlərdə öz əksini tapır. Burada psixikanın xüsusiyyətləri, sosial ustanovka, motivlər, tələbatlar, digər təhrikedici xüsusiyyətlər mühüm rol oynayır. Bunlarla yanaşı qarşılıqlı münasibətlərin qurulmasında mənəvi-əxlaqi keyfiyyətlər, yüksək fəaliyyət motivləri, məqsədyönlü fəallıq və s.

mühüm rol oynayır.

V.E.Çudnovski fəaliyyət və şəxsiyyətin istiqamətini eksperimental yolla öyrənərkən onun şəxsi keyfiyyətlərə, eləcə də ünsiyyət və qarşılıqlı münasibətlərə təsirini öyrənmiş və onların motivlərini aşağıdakı kimi qruplaşdırmışdır:

1) Fəaliyyət və motivlərdə ictimai motivlərin üstünlük təşkil etməsi;

2) Həm ictimai, həm də eqoistik motivlərin təxminən bərabər səviyyədə təzahürü;

3) Eqoistik motivlərin üstünlük təşkil etdiyi şagirdlər.

Kiçik məktəb yaş dövründə qarşılıqlı münasibətlər həm də cinsi fərqlər aspektindəöyrənilmişdir. L.Y.Verb, Y.L.Kolominski və b. cinsi fərqləri, oğlan və qızların kollektivdəki mövqelərini, qarşlılıqlı münasibətləri öyrənərkən belə qənaətə gəlmişlər ki, kiçik məktəb yaş dövründə kollektivdə qızların mövqeyi daha yüksəkdir.

Qrup və kollektivdə qarşlıqlı münasibətlər sistemində liderlik problemi xüsusi əhəmiyyət kəsb edir. Psixoloji ədəbiyyatın təhlili göstərir ki, liderlik problemini psixoloqlar daha çox araşdırmışlar, autsayderlər isə nisbətən diqqətdən kənarda qalmışlar.

Kiçik məktəblilərin qarşılıqlı münasibətləri probleminin nəzəri müddəaları təhlil edərək belə qənaətə gəlmək olar ki, bu sahədə uğurların qazanılması əsas fəaliyyət forması olan təlimin təşkilindən, hər bir şagirdin fərdi xüsusiyyətlərinin nəzərə alınmasıyla onların fəallığının araşdırılmasından çox asılıdır.

Dissertasiyanın I fəslinin**"Pedaqoji kollektivə adaptasiya probleminin pedaqoji-psixoloji mahiyyəti"**adlanan ikinci yarımfəslində şagirdlərin pedaqoji kollektivə adaptasiyasına təsir edən amillər, onun məzmunu araşdırılır. Göstərilir ki, müasir dövrdə kollektivə, sosial mühitə adaptasiya anlayışına çoxsaylı yanaşmalar mövcuddur, lakin onların içərisində adaptasiyanın üç növü daha geniş yayılmışdır: a) özünü dəyişməklə mühitə adaptasiya; b) mühiti özünə uyğunlaşdırma; c)özünütəcrid və ya ətraf mühitdən uzaqlaşma.

L.S.Vıqotski adaptasiya prosesində böyüklərin, M.İ. Lisina ünsiyyətin, A.N. Leontyev fəaliyyətin rolunu xüsusi qeyd edirlər. M.Şerif isə adaptasiya prosesində kollektivdəki psixoloji mühitin təsirini önə çəkir.

Psixoloqlar (A.N.Leontyev, M.İ.Lisina, E.O.Smirnova və b.) uşaqların məktəb həyatına adaptasiyasında təzahür edən bir sıra çətinlikləri: fəaliyyət növünün dəyişməsini, mühitin yenişəlməsini, yeni ünsiyyətin yaranmasını aid edirlər. D.İ. Feldşteyn kiçik məktəblilərin kollektivə adaptasiyasında qarşılıqlı münasibətlərin xüsusi rol oynadığını və ikili xarakter daşıdığını göstərir. Bunlardan biri obyektə, digəri isə insanlara münasibətdir. Bir çox

tədqiqatçılar (A.A.Bodalyov, Y.L.Kolominski, M.Ə.Həmzəyev, Ə.Ə.Əlizadə, V.Kessel, Q.Şreder və b.) kiçik məktəblilərin məktəbə adaptasiyasında müəllim-şagird münasibətlərinin xüsusi əhəmiyyət daşıdığını bildirirlər.

Kiçik məktəblilərin pedaqoji kollektivə, təlim fəaliyyətinə, yaşıdlarına, müəllimlərinə, bir sözlə, məktəb həyatına uyğunlaşması mürəkkəb, bir-birilə sıx bağlı olan amillərdən asılıdır. Kollektivə necə adaptasiya olunduqlarından aslı olaraq onların şəxsi keyfiyyətləri formalaşır, təlim fəaliyyətində uğur qazanılması və ya uğursuzluğa düçar olunması üçün zəmin yaranır.

Dissertasiyanın I fəslinin üçüncü yarımfəslində**"Azərbaycan psixoloji fikrində problemin tədqiqinin əsas istiqamətləri"** araşdırılır. Göstərilir ki, Azərbaycanda problemlə bağlı fikirlərin yaranmasını iki mərhələyə ayırmaq olar: a) elməqədərki, b) elmi-nəzəri araşdırmalar. Bunlardan birincinin təşəkkülü və inkişafı yüzillikləri, ikincisi onillikləri əhatə edir. Klassik ədəbiyyatda (N.Tusi, S.Şirazi. S. Urməvi və b.) valideyn-övlad münasibətlərindən bəhs olunarkən övlada ilk növbədə yaxşı elm öyrədilməsi, tərbiyə verilməsi nəzərdə tutulur.

Kiçik məktəblilərin psixoloji xüsusiyyətləri, qarşılıqlı münasibətlər, ünsiyyət, kollektivə adaptasiya problemi psixologiya dərsliklərində, monoqrafiyalarda, dissertasiya işlərində və s. öyrənilmişdir. Bu sahədə B.H. Əliyev, Ə.S. Bayramov, Ə.Ə.Əlizadə, M.Ə.Həmzəyev, Ə.Ə.Qədirov, Q.E.Əzimov və digərlərinin əsərləri xüsusi önəm daşıyır. Onların tədqiqatlarında problem psixi inkişaf, şəxsiyyətin formalaşdırılması kontekstində şərh olunur.

Dissertasiyanın **"Kiçik məktəblilərin fəaliyyət prosesində qarşılıqlı münasibətləri və kollektivə adaptasıyasının psixoloji xüsusiyyətləri"** adlanan II fəsilində kiçik məktəblilərin yaşıdları ilə qarşılıqlı münasibətləri, təlim fəaliyyəti, birgə fəaliyyət prosesində qarşılıqlı münasibətləri, eləcə də onların kollektivə adaptasiyasının psixoloji xüsusiyyətləri, qarşılıqlı münasibətlər, şagirdin kollektivdə mövqeyi, fəaliyyət motivləri ilə bağlı aparılan eksperimentin nəticələri öz əksini tapır.

Dissertasiyanın II fəslinin birinci yarımfəsli **"Kiçik məktəblilərin yaşıdları ilə qarşılıqlı münasibətləri və kollektivə adaptasiyaya onun təsiri"** adlanır. Burada şagirdlərin motivasiya sferası, idrak motivləri ilə sosial motivlər arasındakı qarşılıqlı asılılıq, birinin digərinə təsiri "tamamlanmamış dərs" metodundan istifadə etməklə öyrənilir.

Kiçik məktəblilərin fəaliyyət və davranış motivlərinin istiqamətinin öyrənilməsi və onun qarşlıqlı münasibətlərə təsirini müəyyənləşdirmək məqsədilə L.S.Slavinanın hazırladığı metodika modifikasiya edilməklə tədqiqata tətbiq edilmişdir. Bu tədqiqat Gəncə şəhərindəki İ. Qayıbov adına 1№-li məktəbin I-IV siniflərində aparılmışdır.

Bu yarımfəsildə psixoloqların fəaliyyət və davranış motivlərinin iki böyük

qrup olmaqla təsnifatı verilir. Qeyd ediliir ki, idrak motivləri yeni biliklərin qazanılması ilə bağlıdır və kiçik məktəb yaş dövründə demək olar ki, əksər məktəblilər üçün xarakterikdir. Bu, ilk növbədə yeni fəaliyyət növü, məktəb həyatının zahiri atributları, kollektivə adaptasiya olunmaq üçün kollektiv həyatı ilə bağlı yeni biliklərin mənimsənilməsindən irəli gəlir. Bir qayda olaraq, idrak motivlərinin formalaşmasında müəllimlər daha mühüm rol oynayırlar. Müəllim hələ şagird tərəfindən tam dərk olunmayan idrak motivlərini tədricən möhkəmləndirmədikdə onun bu sahəyə marağı itir, şagirdlər psixi gərginlik keçirirlər. Onların diqqətləri asanlıqla lazım olmayan obyektə yönəlir. Sosial motivlər isə kiçik məktəb yaş dövründə, xüsusilə I sinifdə kollektivdə mövqe tutmaq, təriflənmək, yaşıdları və böyüklərin yanında nüfuz sahibi olmaq mahiyyəti kəsb edir. Yaxşı məktəbli mövqeyini qazanmaq şagirdin məktəbə marağını artırır, çalışır ki, həmişə dərslərinə hazır olsun, yüksək qiymətlər alsın, müəllim daim onu tərifləsin və s. Lakin kiçik məktəblilərin məktəb həyatı ilə bağlı sosial motivi hələ də formal xarakter daşıyır. Onlar təlimin ictimai mahiyyətini tam mənası ilə bilməsələr də böyüklərin tərifini eşitmək üçün ona sosial məzmun verməyə çalışırlar.

Bu sahədə aparılmış tədqiqatın nəticələrinin təhlili göstərdi ki, şagirdin fəallığı eqoistik motivlərə əsaslanır: təriflənmək, birinci olmaq, yaşıdlarından seçilmək və s. Bunula yanaşı bu yarımfəsildə kiçik məktəblilərin fəaliyyət və davranış motivlərinin istiqamətini müəyyənləşdirmək, onun təlim fəaliyyəti və yaşıdları ilə qarşılıqlı münasibətlərə təsirini öyrənmək üçün eksperimentlər keçirilmişdir. Eksperiment zamanı şagirdlər konflikt situasiyasına düşür və iki variantdan birini seçməli olurlar.

Eksperiment Gəncə şəhərindəki 5 №li məktəbin III sinif şagirdləri ilə üç mərhələdə aparılmışdır. Eksperimentin gedişindən kiçik məktəbliləri konflikt situasiyasına salmaq, seçim etməyə sövq etmək üçün «Ulduzcuq» metodik priyomundan istifadə olunmuşdur. Təqqiat nəticəsində bəlli oldu ki, eqoistik motivlərin üstünlük təşkil etdiyi şagirdlər «ulduzcuqları» özləri üçün, kollektiv motivlərin üstünlük təşkil etdiyi şagirdlər isə başqaları üçün götürdülər. Eqoistik motivin üstünlük təşkil etdiyi şagirdlərin bəziləri özlərinin əsl niyyətlərini gizlətməyə çalışırdılar. Lakin IV sinif şagirdləri onlardan fərqli olaraq kollektivçi kimi görünməyə çalışır, özlərinin eqoistik motivlərini gizlətməyə cəhd edirlər. Bunun üçün müxtəlif bəhanələr tapmağa səy göstərirlər. «Evdə yaxşısını hazırlayacam», «Anama göstərib sabah gətirəcəm» və s. Apardığımız tədqiqat göstərdi ki, I sinif şagirdlərinə nisbətən II sinif şagirdlərində ictimai motivlərlə eqoistik motivlərin üstünlük təşkil etdiyi şagirdlər arasında hələ xeyli fərq özünü göstərir. Lakin III sinifdə bu nisbət təxminən bərabərləşir.

Kiçik yaşlı məktəblilərlə «Ulduzcuq» hazırlamaqla bağlı keçirilən eksperiment zamanı təzahür edən motivlər

Cədvəl 2.1.

| Siniflər | Şagirdlərin sayı | İctimai motivlərin üstün olduğu şagirdlər | | Eqoistik motivlərin üstün olduğu şagirdlər | |
|---|---|---|---|---|---|
| | | sayı | % ifadəsi | sayı | % ifadəsi |
| I | 48 | 14 | 31,3 | 34 | 68,7 |
| II | 53 | 19 | 35,8 | 34 | 64,2 |
| III | 55 | 23 | 41,8 | 32 | 58,2 |
| IV | 52 | 24 | 46,1 | 28 | 53,9 |

Cədvəl 2.1-dən görünür ki, 48 nəfər I sinif şagirdindən 14 nəfərində (31,3%), 53 nəfər II sinif şagirdindən 19 nəfərində (35,8 %), 55 nəfər III şagirdindən 23 nəfərində (41,8%), 52 nəfər IV sinif şagirdindən 24 nəfərində (46,1 %), ictimai (kollektivçilik) motivlər üstünlük təşkil etdi. 34 nəfər (68,7 %) I sinif, 34 nəfər (64,2 %) II sinif, 32 nəfər (58,2 %) III sinif, 28 nəfər (53,9 %) IV sinif şagirdlərində eqoistik (şəxsi) motivlər üstünlük təşkil etdi. Bundan başqa, eksperimentdə iştirak edən 208 nəfər şagirddən 67 nəfəri (32,2 %) heç bir tərəddüd etmədən uşaq bağçası üçün kvadrat hazırlamağa başladı. Onlardan 13 nəfəri I sinif, 16 nəfəri II sinif, 20 nəfəri III sinif, 18 nəfəri isə IV sinif şagirdləridir.

Eksperimentin nəticələri göstərdi ki, I sinif şagirdlərində ictimai motivlər hələ kifayət qədər formalaşmayıb və digər siniflərlə müqayisədə xeyli aşağı səviyyədədir. Fikrimizcə, bu I sinif şagirdlərinin kollektivə hələ tam adaptasiya olunmaması ilə əlaqədardır. Hələ onlar kollektiv həyatına bütövlükdə uyğunlaşmadığından onlar üçün kollektiv davranış formalarını mənimsəmək, birgə fəaliyyət göstərmək xeyli çətinlik törədir. Bizdən ötəri maraqlı idi ki, eqoistik və ictimai motivlərin üstünlük təşkil etdiyi şagirdlər məktəbə ailədən birbaşa gəlib, yoxsa uşaq bağçalarına gediblərmi?

Tədqiqatın nəticəsində aydın oldu ki, uşaq bağçasına getmiş şagirdlərdə bağçaya getməyən şagirdlərə nisbətən ictimai motivlər daha yüksək faiz təşkil edir. 48 nəfər I sinif şagirdindən 27 nəfəri uşaq bağçasına getmiş, 21 nəfəri isə ailədən məktəbə gəlmişdir. Maraqlıdır ki, bu 21 nəfər şagirddən yalnız 5 nəfərində ictimai motivlər özünü göstərmişdir.

Təkrar başqa məktəbdə aparılan eksperimentin nəticələri göstərdi ki, 48 nəfər şagirddən 13 nəfərində (27,1%) ictimai, 35 nəfərində (72,9%) isə eqoistik motiv özünü göstərmişdir. Bu rəqəm şəhər məktəbi ilə müqayisədə daha azdır. Rayon məktəbində I sinfə gedən şagirdlərin çox faizi uşaq bağçasına getməmişdir. Fərqləndirici bir cəhət isə ondan ibarətdir ki, rayon uşaqlarının çoxu çoxuşaqlı ailədə böyümüşdür ki, bu da onlarda ictimai

motivlərin formalaşmasına təsir göstərmişdir.

Beləki, 48 nəfər I sinif şagirdindən 16 nəfərində, 53 nəfər II sinif şagirdindən 18 nəfərində, 55 nəfər III sinif şagirdindən 19 nəfərində, 52 nəfər IV sinif şagirdindən 15 nəfərində eqoistik motiv özünü göstərdi. Göründüyü kimi, konflikt situasiyası şagirdlərin ictimai və eqoistik motivlərində heç bir dəyişikliyə səbəb olmamışdır. Ona görə də istər təlim prosesində, istərsə də sinifdənxaric tədbirlər zamanı müntəzəm olaraq şagirdlərin davranışını müşahidə etməli olduq. Bu bizə şagirdlərin davranış motivlərinin mahiyyətini daha düzgün öyrənməyə imkan verməlidir. Davranış zamanı bizi daha çox şagirdlərin kollektivə, yoldaşlarına, ictimai işə münasibəti maraqlandırırdı.

Apardığımız eksperimentin nəticələrinin təhlili göstərdi ki, hər iki təcrübədə ictimai motivlərin, eləcə də eqoistik motivlərin üstünlük təşkil etdiyi şagirdlərin nisbəti eynidir. Lakin sinifdən-sinfə keçdikcə eqoistik motivlərin nisbəti azalır.

Növbəti eksperiment zamanı biz kiçik məktəblilərin qarşılıqlı münasibətləri ilə təlim moitivlərinin qarşılıqlı təsirini öyrənməyə çalışdıq. Bu zaman biz şagirdlərin ictimai fəallıq motivləri ilə şəxsi motivlərindən hansının üstün olduğunu müəyyənləşdirdik.

Eqoistik və kollektivçi motivli şagirdlərin üstünlük verdikləri fəaliyyət forması

Cədvəl 2.2

| Fəaliyyət forması | Kollektivçi şagirdlər | | Eqoistik şagirdlər | |
|---|---|---|---|---|
| | sayı | % ifadəsi | sayı | % ifadəsi |
| Kollektiv | 32 | 72,2 | 10 | 27,8 |
| Fərdi | 7 | 45,4 | 31 | 54,6 |
| Kollektiv və fərdi | 12 | 35,2 | 8 | 64,8 |

Cədvəl 2.2-dən göründüyü kimi, kollektivçi motivlərin üstünlük təşkil etdiyi şagirdlər kollektivə tapşırılan tapşırığı yoldaşları ilə birlikdə yerinə yetirməyə üstünlük verirlər. Onların 72,2% birlikdə fəaliyyət göstərmək istədikləri halda eqoistik motivli şagirdlərdə bu 27,8% təşkil edir. Bir sıra şagirdlər isə tapşırığı həm kollektiv, həm də fərdi qaydada yerinə yetirməyə üstünlük verdiklərini göstərmişlər. Uyğun olaraq bu, kollektivçi şagirdlərdə 35,2%, eqoistik motivli şagirdlərdə isə 64,8% təşkil edir. Kollektiv fəaliyyətə üstünlük verən kollektivçi şagirdlərlə eqoistik motivli şagirdlərin fəaliyyətin bu formasını seçmələri keyfiyyətcə bir-birlərindən fərqlənir. Göründüyü kimi kiçik məktəb yaş dövründə müəllim istər şagirdlərin təlim fəaliyyətini, istərsə də tərbiyə işini qurarkən ilk növbədə onların fərdi xüsu-

siyyətlərini nəzərə almalıdır. Təbii ki, müəllimin vəzifəsi başlıca olaraq bu xüsusiyyətləri nəzərə almaqla onlarda kollektivçilik ruhu tərbiyə etməklə onların kollektivə adaptasiyasını təmin etmək olmalıdır. Təcrübə göstərir ki, elə şagirdlər var ki, onlar kollektivə, kollektiv fəaliyyətə, bir sözlə, kollektiv həyatına tez adaptasiya olunurlar, lakin onlar hər bir işdə şəxsi maraqlarını güdürlər. Onlar fəaldırlar, lakin bu fəallıq təriflənməyə, başqalarından üstün olduğunu sübut etməyə yönəlmişdir. Bir qayda olaraq bu şagirdlərdə belə fikir formalaşır ki, onlar hamıdan üstündürlər, əvəzolunmazdırlar.

Eksperimentin nəticələri, şagirdlərlə söhbət, eləcə də öz müşahidələrimizə əsaslanaraq deyə bilərik ki, eqoistik motivli şagirdlər fərdi tapşırıqları yerinə yetirərkən daha çox fəallıq göstərirlər, nəinki kollektiv işlərdə, onların təlim müvəffəqiyyəti yüksək olduqda kollektivdə statusları da yüksək olur. Kollektivçi motivlərin üstünlük təşkil etdiyi şagirdlər adətən kollektiv həyatına tez alışırlar. Onlar yoldaşlarına kömək etməyi, kollektiv işdə fəallıq göstərməyi xoşlayırlar. Verilən informasiyaları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, kiçik məktəblilərin şəxsiyyətinin istiqaməti, fəaliyyət və davranış motivləri ilə onların kollektivə adaptasiyası arasında birbaşa asılılıq mövcuddur. Müəllim bu xüsusiyyətləri nəzərə aldıqda həm kollektiv formalaşır, həm də təlimin keyfiyyəti yüksəlir.

Dissertasiyanın II fəslinin **"Kiçik məktəb yaş dövründə şəxsiyyətlərarası münasibətlər və təlim fəaliyyəti"** adlanan ikinci yarımfəslində şəxsiyyətlərarası münasibətlərlə təlim fəaliyyəti arasındakı asılılıq öyrənilmişdir. Burada göstərilir ki, təlim prosesində şagirdlər yalnız müəyyən biliklər qazanmır, həm də qarşılıqlı münasibətlər qurmağı, birgə fəaliyyət göstərməyi öyrənirlər.

Aydın oldu ki, birgə fəaliyyət və təlim müvəffəqiyyəti həm də onun ictimai motivlərlə nə dərəcədə uzlaşdırılmasından asılıdır. Fəaliyyət növlərindən birinin düzgün təşkil olunmaması, maraq və meylin nəzərə alınmaması digər fəaliyyət növünə, şəxsiyyətlərarası münasibətlərə, bütövlükdə şəxsiyyətin formalaşmasına mənfi təsir göstərir.

Problemə həsr olunmuş tədqiqatların təhlili göstərir ki, ibtidai sinif müəllimləri bir qayda olaraq daha çox şagirdlərin təlim fəaliyyətinə diqqət yetirirlər və bu zaman digər fəaliyyət növləri, o cümlədən şagirdlərin qarşılıqlı münasibətlərinin düzgün qurulması ikinci dərəcəli vəzifə hesab edilir. Təbii ki, kiçik məktəb yaş dövründə təlim fəaliyyəti əsas fəaliyyət formasıdır və o psixi inkişafı, şəxsiyyətin formalaşmasını təmin edir. Bununla belə, təlim fəaliyyəti özü digər fəaliyyət növlərindən, eləcə də qarşılıqlı münasibətlərin necə qurulmasından çox asılıdır. Nəzərə alsaq ki, məhz bu yaş dövründə şəxsiyyətin formalaşması, şagirdin mənəvi tərbiyəsinin istiqaməti, öz «Mən»inin dərk olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Onda yal-

nız təlim fəaliyyəti inkişafına deyil, şəxsiyyətin bütün keyfiyyətlərinin kompleks, vəhdət şəklində inkişafına diqqət yetirmək lazım gəlir. Qeyd olunan məsələlərin eksperimental planda yoxlanılması üçün tədqiqat aparıldı. Eksperiment oyun-yarış xarakteri daşıyırdı. Eksperiment Gəncə şəhəri 5№ li məktəbin I-III sinif şagirdləri ilə keçirilmişdir.

Eksperimentin maraqlı, cəlbedici və inandırıcı olması üçün şərti olaraq ona «Raket hədəfə uçur» adı qoyuldu. Eksperiment zamanı hər sinifdə şagirdlər iki qrupa bölündü. Bu, qruplar arasında rəqabət yaradır və şagirdlərin münaqişə situasiyası ilə üzləşdirir. Oyunun şərti belə idi ki, hər bir şagird topu hədəfə 5 dəfə ata bilərdi. Top hər dəfə hədəfə düşdükdə 3 xal verilirdi. Şagirdlər əgər 9 xal toplasalar yarışı növbəti mərhələdə davam etdirə bilərdilər. Bu zaman onlar yerdə qalan topu atmaq imkanından istifadə etməklə şəxsi birincilik üçün əlavə xal toplaya və ya həmin imkanı kifayət qədər xal toplaya bilməyən yoldaşına verməklə onun da xal qazanmasına imkan yaradır. Bu zaman şagird aşağıdakı seçim etmək situasiyası ilə üzləşir:

a) o, ən yaxşı atıcı üçün təsis edilmiş mükafatı almaq üçün özü bütün imkanlardan istifadə edir;

b) kifayət qədər xal toplaya bilməyən yoldaşlarından birinə imkan verir ki, o da yarışı davam etdirsin.

Birinci variant «özü üçün», ikinci variant isə «yoldaşı üçün» seçim etməkdir.

Beləliklə, 68 nəfər I sinif şagirdindən 43 nəfəri, 72 nəfər II sinif şagirdindən 39 nəfəri, 71 nəfər III sinif şagirdindən 34 nəfəri, 65 nəfər IV sinif şagirdindən 26 nəfəri I mərhələ üçün lazım olan xalı toplaya bilmədilər. 3 və ya 4 dəfə topu hədəfə atmaqla lazım olan minimum balı toplamış və ehtiyatda 1 və ya 2 dəfə topu atmaq imkanı olan 25 nəfər I sinif şagirdindən 9 nəfəri, II sinif şagirdindən 14 nəfəri, III sinif şagirdlərindən 18 nəfəri, IV sinif şagirdlərindən 21 nəfəri topun atılmasını yoldaşlarına güzəştə getdilər.

«Raket hədəfə uçur» yarışı zamanı «özü üçün»
və ya «yoldaşı üçün» seçim edənlər

Cədvəl 2.3.

| Siniflər | Şagirdlərin sayı | Kifayət qədər xal toplaya bilməyənlər (% ifadəsi) | İlk mərhələdə kifayət qədər xal toplayanlar (% ifadəsi) | Özləri üçün seçim edənlər (% ifadəsi) | Yoldaşlarına güzəşt edənlər (% ifadəsi) |
|---|---|---|---|---|---|
| I | 68 | 61,8 | 38,2 | 68,0 | 32,0 |
| II | 72 | 55,6 | 44,4 | 57,4 | 42,6 |
| III | 71 | 49,8 | 50,2 | 50,2 | 49,8 |
| IV | 65 | 40,0 | 60,0 | 40,6 | 59,4 |

Cədvəldən göründüyü kimi, kiçik məktəblilərdə hələ yoldaşlıq, yoldaşının xeyrinə güzəştə getmək hissi hələ tam formalaşmayıb. Onlar hələ də kiçik «eqoistlər» olaraq qalırlar. Bu hal I sinif şagirdlərində özünü kifayət qədər güclü şəkildə göstərir. IV sinifdə isə «eqoizm» xeyli azalır. Həm eqoistik, həm də kollektivçilik motivlərinin üstünlük təşkil etdiyi şagirdlər öz seçimlərini müəyyən qədər əsaslandırmağa çalışırlar. Lakin eqoistik motivin üstünlük təşkil etdiyi şagirdlər öz davranışlarına haqq qazandırmaq üçün dolayısıyla səbəblər, bəhanələr tapmağa çalışırlar. Onlar öz fikirlərini belə əsaslandırırlar: «Onlar onsuz da düzgün ata bilmirlər», «Onsuz da onlar lazım olan xalı yığa bilməzlər» və s.

«Özləri üçün» seçim edənlər də özlərini fərqli şəkildə aparırlar. Bəziləri dayanır, tərəddüd edir, sonra öz seçimlərini edirlər. Digərləri isə heç bir tərəddüd etmədən dərhal qərara gəlirlər. Müşahidələr göstərdi ki, yuxarı siniflərə doğru tərəddüd edib sonra qərara gələnlərin sayı daha çox olur.

«Özü üçün» və ya «yoldaşı üçün» seçim edənlər hələ yoldaşlarının vəziyyətini, keçirdikləri hissləri kifayət qədər dərk edə bilmirlər.

«Yoldaşları üçün» seçim edənləri də iki qrupa ayırmaq olar. Onların da bəziləri əvvəlcə tərəddüd edir, sonra çətinliklə də olsa yoldaşlarına güzəştə gedirlər. Məsələn, Arif belə deyir: «Mən özüm də mükafat almaq istəyirəm, lakin Elxan mənim dostumdur. İstəyirəm o pis vəziyyətdə qalmasın». Bəzi şagirdlər isə fikirləşmək üçün vaxt istəyir, xeyli tərəddüddən sonra qərara gəlirlər. Bu zaman onlar sanki utanır, özlərini narahat hiss edirlər. İkinci qrup isə heç bir tərəddüd etmədən, fikirləşmədən yoldaşlarının xeyrinə qərar çıxarırlar. Bəzən «yoldaşı üçün» qərara gəlməyin özü də eqoistik motivdən doğur. Onlar bununla yoldaşlarının yanında yaxşı olmaq fikrinə üstünlük verirlər.

Verilən informasiyaları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, kiçik məktəblilərin kollektivə adaptasiyası kifayət qədər mürəkkəb prosesdir. Burada ailə tərbiyəsi, uşağın məktəbə psixoloji cəhətdən necə hazır olması, onun fərdi-psixoloji xüsusiyyətləri önəmli rol oynayır.

Dissertasiyanın II fəslinin üçüncü yarımfəsil **"Kiçik məktəblilərin birgə fəaliyyət prosesində qarşılıqlı münasibətlərinin psixoloji xüsusiyyətləri"** adlanır. Qarşılıqlı münasibətlərin psixoloji xüsusiyyətlərinin öyrənilməsi üçün bir neçə eksperiment aparıldı. Bu zaman təlim prosesində qrup fəaliyyətinə, birgə əməkdaşlığa istinad olundu. Bu prosesdə müəllim ayrı-ayrı şagirdlərlə deyil, qrupla işləyir, qarşılıqlı münasibətləri önə çəkir. Tədqiqatın gedişindən aydın oldu ki, kiçik məktəblilər, xüsusilə I sinif şagirdləri kollektiv normaları, əxlaqi dəyərləri kifayət qədər bilmirlər. Böyüklərin köməkliyi ilə, eləcə də təlim fəaliyyətində işin bu cəhətinə diqqət yetirildikdə həm təlim müvəffəqiyyəti yüksəlir, həm də qarşılıqlı münasibətlərdə uğurlu

nəticələr alınır. Beləliklə, şagirdlərin birgə təlim fəaliyyəti prosesində şagirdlərin qarşılıqlı münasibətlər sistemində dəyişiklik baş verir. Şagirdlərin bir-birilə qarşılıqlı münasibətləri aktivləşir, müəllim-şagird münasibətləri arxa plana keçir. Təlim prosesində şagirdlərin müəyyən qədər müstəqilləşməsi həm təlim fəaliyyətinə, həm də müəllimin işinin xarakterinə təsir göstərir. Şagirdlərin birgə fəaliyyəti müəllimi nisbətən təşkilati, nəzarət və fəaliyyəti qiymətləndirmə işlərindən azad edir. Bu isə imkan verir ki, müəllim şagirdlərin fərdi xüsusiyyətlərini, davranışlarını, qarşılıqlı münasibətlərini izləyə bilsin. İşin belə təşkili müəllimə tərbiyəvi işlərlə daha ciddi şəkildə məşğul olmaq imkanı verir.

Təlim prosesində şagirdlərin müstəqil fəaliyyət göstərə bilmələri təlim fəaliyyətinin də səmərəliliyini artırır. Təlimin qrup formasında təşkili şagirdlərin öz qüvvəsinə inamını yüksəldir. Kiçik məktəblilərin fəaliyyət prosesində yaşıdları ilə əməkdaşlığı heç də onların tam mənası ilə sərbəst olması deyil. Təbii ki, müəllimin nəzarət və qiymətləndirməsi müəyyən qədər qalır. Uzun müddət yalnız müəllimin ciddi nəzarəti altında çalışmaq şagirdlərin müstəqillik keyfiyyətini müəyyən qədər azaldır. Birdən-birə verilən tam sərbəstlik ilk vaxtlarda şagirdlərdə inamsızlıq, çəkingənliklə müşahidə olunur. Eyni zamanda tam sərbəstlik intizamın pozulması, təlim müvəffəqiyyətinin aşağı düşməsi ilə də nəticələnə bilər.

Eksperiment nəticəsində müəyyənləşdirildi ki, şagirdlərə «mühüm işlər» tapşırıldıqda, yəni onlar «müəllim rolunu yerinə yetirdikdə» onların idrak imkanları, yaradıcı təxəyyülləri daha düzgün inkişaf edir. Beləki, onlar birincilərin nəyi bilib-bilməmələrini, nəyi bacarıb bacarmayacaqlarını təxəyyüllərində canlandırır, düşünür, düzgün qərar çıxarmağa çalışırlar. Bununla bərabər, hər bir şagird yoldaşlarının da bu barədə nə düşündüyünü nəzərə almalı olur.

Nəzərə almaq lazımdır ki, birgə fəaliyyət prosesində şagirdlərin hamısı özlərini fəaliyyətin bərabərhüquqlu üzvü kimi qavrayır. Onlar diskussiyaya girir, mübahisə edir, müstəqil şəkildə problemin həlli yollarını axtarırlar. Belə vəziyyət xüsusilə təlimdə geridə qalan şagirdlərə daha səmərəli təsir göstərir. Halbuki, ənənəvi təlim formasında onlar, bir qayda olaraq özlərini passiv aparır, intizamı pozurlar. Müəllim onlara sualla müraciət etdikdə, lövhəyə çağırdıqda həyəcanlanır, narahatlıq keçirirlər.

Bunun əksi olaraq yaradıcı təhsil mühitində həmin şagirdlər kifayət qədər fəallıq göstərir, birgə fəaliyyət zamanı özlərini rahat hiss edirlər. Eksperimentin sonunda onlar bir daha belə işlərdə iştirak etmək istədiklərini bildirirdilər. Onlar bu prosesdə heç də yaxşı oxuyan yoldaşlarından geri qalmaq istəmirdilər. Səhv etdikdə yoldaşlarından soruşur, müzakirələrə qoşulurdular.

Dissertasiyanın II fəslinin **“Kiçik məktəblilərin qarşılıqlı münasibətlərində və kollektivə adaptasiyasında empatiyanın rolu”** adlanan dördüncü yarımfəslində empatiyanın psixoloji mahiyyəti açıqlanır, yaş və fərdi xüsusiyyətlərdən asılı olaraq onların təzahürü öyrənilir. Müxtəlif metodikalarla müxtəlif mürəkkəb şəraitdə şagirdlərin empatik reaksiyaları öyrənilir. Şagirdlərə heyvanların, yaşlıların və şagirdlərin, yoldaşlarının düşdüyü ekstremal situasiya ilə bağlı hekayələr oxunur. Hekayəyə şagirdlərin münasibətini aşağıdakı cədvəldə görmək olar.

Tamalanmamış hekayələrə II-IV sinif şagirdlərinin münasibəti

Cədvəl 2.2

| Siniflər | Şagirdlərin sayı | I situasiya | | II situasiya | | III situasiya | |
|---|---|---|---|---|---|---|---|
| | | Qalsın | Qaytarsın | Getsin | Qalsın | Aydın haqlıdır | Famil haqlıdır |
| II | 29 | 41,4 | 58,6 | 42,3 | 57,7 | 32,6 | 67,4 |
| IV | 32 | 34,4 | 65,6 | 69,2 | 30,8 | 47,2 | 52,8 |

Cədvəl 2.2-dən göründüyü kimi, kiçik məktəblilər münaqişə vəziyyətində özlərini hadisələrə münasibətlərini bildirərkən qarşı tərəfin hisslərini, vəziyyətini adekvat qiymətləndirməyi bacarırlar. Onlar özləri də hadisəyə emosional reaksiya verir, münasibət bildirir, özlərini hekayənin qəhrəmanının yerində təsəvvür edir, onu dərk etməyə çalışırlar. Bu baxımdan kiçik məktəblilərdə davamlı empatiyanın təzahür etdiyi özünü göstərir.

Pedaqoji kollektivdə formalaşan psixoloji mühitin kiçik məktəblilərin məktəb həyatına adaptasiyasında əhəmiyyətli rol oynayır. Burada yalnız müsbət mühit deyil, həm də neqativ təzahürlər özünü göstərə bilər. Böyüklərin, eləcə də yaşıdların emosional empatiyası olmadıqda, yəni şagirdlər özlərinin başa düşülmədiklərini fikirləşdikdə, tədricən onlarda mənfi davranış əlamətləri təşəkkül tapır. Bu isə sinifdə şagirdlər arasında konfliktin yaranmasına gətirib çıxardır.

Apardığımız tədqiqat aşağıdakı **nəticəyə** gəlməyə imkan verir:

- Kiçik məktəblilərin təlim müvəffəqiyyəti, psixi sağlamlığı, şəxsiyyətin formalaşması istiqamətləri onların pedaqoji kollektivə adaptasiya imkanlarından, müəllimləri və yoldaşları ilə qurduqları qarşılıqlı münasibətlərin pozitivliyindən asılıdır.
- Qarşılıqlı münasibətlər məktəbəqədər yaşdan başlasa da, planlı, sistemli şəkildə yalnız uşaq məktəbə daxil olduqdan sonra, təlim-tərbiyə prosesində, yaşıdları və yaşlılarla ünsiyyət və birgə fəaliyyət prosesində, ictimai işlərə fəal şəkildə qoşulmaqla gerçəkləşir. Eyni zamanda uşağın bu prosesdə özünə münasibəti dəyişir ki, bu da onun daxili aləmində əsaslı dəyişikliyə səbəb

olur.

- Kiçik məktəblilərin kollektivə adaptasiyasında onların kollektivin ictimai işlərinə cəlb olunması xüsusi əhəmiyyət kəsb edir. İctimai fəaliyyət bir tərəfdən qarşılıqlı münasibətlərin qurulmasına müsbət təsir edirsə, digər tərəfdən də kollektiv fəaliyyətə uyğunlaşmaya, ümumi maraq və məqsədin ətrafında birləşməyə imkan yaradır. İctimai işlərdə fəal iştirak etməklə məktəblilərin mənəvi tərbiyəsi, vətəndaşlıq keyfiyyəti yüksəlir, daha sonra şəxsiyyətin strukturunda davamlı keyfiyyətə çevrilir.

- Kiçik məktəb yaşı dövründə yaşıdlarının, sinif yoldaşlarının rəyi şagirdlərə əsaslı təsir göstərir. Şagirdlərin təlim müvəffəqiyyəti, fəallığı, şəxsiyyətlərarası münasibətlər sistemində mövqeyi, davranışı çox vaxt bu rəydən asılı olur. İctimai rəyin əsasında şagirdin tədricən özünüqiymətləndirməsi, eqoistik motivin aradan qaldırılması baş verir. Yaşıdların ictimai rəyi eyni zamanda kollektivin psixoloji mühitini şərtləndirir.

- Kiçik məktəblilərin bir-birilərini qavramaları, digər adamların onlar haqqında söylədikləri fikirlərə əsasən baş verir. Əks tərəf haqqında fikirləri situasiyaya uyğun dəyişir. Tanış olmayan insanlarla ünsiyyət tələbatı onlarda xarici amillərin təsiri altında baş verir. Ünsiyyətin məzmunu da xarici amillərin təsirindən asılıdır.

- Müəyyənləşdirildi ki, kiçik məktəblilərin təlim tapşırıqlarının kollektiv şəkildə təşkili və beləliklə birgə fəaliyyət prosesində ümumi nəticənin alınması onlarda yaşıdları ilə qarşılıqlı münasibətlərə girmək zərurəti yaradır. İşin xarakterindən asılı olaraq onlarda yoldaşlıq, xeyirxahlıq, düzlük, fəallıq kimi keyfiyyətlər formalaşır. Nəticədə qarşılıqlı münasibətlər və təlim fəaliyyəti vəhdət şəkilində bir-birlərinə təsir göstərir, şagirdlərin kollektivə, kollektiv fəaliyyətə adaptasiyasını sürətləndirir.

- Kiçik məktəblilər yaşıdları ilə ünsiyyət qurmaqda çətinlik çəkirlər. Bunun bir səbəbi onlar üçün ünsiyyətin başlıca şərt olmaması, digər tərəfdən şagirdin fərdi-psixoloji xüsusiyyəti ilə bağlıdır. Bu özünü daha çox aqressiv, əsəbi şagirdlərin davranışında təzahür etdirir. Ünsiyyət qurmağa çətinlik çəkən digər şagirdlər bir qayda olaraq qapalı, qaraqabaq olduqlarından onlar kollektivə adaptasiya olunmaqda problemlə üzləşirlər.

Dissertasiyanın əsas müddəaları **müəllifin** aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:

1. Şagird kollektivinin formalaşmasında sinif müəlliminin rolu // Dil vəədəbiyyat curnalı, Bakı, 2007,№ 4(58), s.176-184

2. Kiçik məktəblilərin birgə fəaliyyət prosesində qarşılıqlı münasibətlərinin psixoloji xüsusiyyətləri // Psixologiya jurnalı, Bakı, 2009, № 3, s.95-104

3. Взаимноотношения младших школьников со сверстниками и их влияние на адаптацию в коллективе // Новые технологии в образование, Воронеж 2009, № 4, с. 36-40

4. Kiçik məktəblilərin qarşılıqlı münasibətlərində və kollektivə adaptasiyasında empatiyanın rolu // Azərbaycan Dillər Universitetinin Elmi xəbərlər, Bakı, 2009, № 3, s.317-323

5. Pedaqoji kollektivə adaptasiya psixoloji problem kimi / Aspirantların və gənc tədqiqatçıların XIII Respublika elmi konfransı. Bakı: 2009, s.300-301

6. Kiçik məktəblilərin təlim fəaliyyəti və qarşılıqlı münasibətlərinin psixoloji xüsusiyyətləri / Gəncə Dövlət Universitetində keçirilən Beynəlxalq konfrans materialları. Gəncə : 2010, s.181-187

7. Kiçikyaşlı məktəblilərin qarşılıqlı münasibətlərinin psixoloji məsələləri // Psixologiya jurnalı, Bakı, 2010,№ 3, s.134-142

8. Kiçik məktəb yaşı dövründə təlim fəaliyyəti / "Azərbaycan təhsili yeni inkişaf mərhələsində" mövzusunda Respublika elmi-konfransının material-ları. Bakı: 2010, s.367-368

9. Kiçik məktəbli şəxsiyyətinin formalaşmasına fəaliyyət motivləri və qarşılıqlı münasibətlərin təsiri / Tədris prosesinin təkmilləşdirilməsini peda-qoji-psixoloji problemləri mövzusunda Beynəlxalq konfransın materialları. Naxçıvan: 2011 s.198-199

10. Психологические особенности адаптации младших школьников к классному коллективу // Ұлт тағылымы (Достояние нации), Казах-стан, 2011, № 3/2011, с.164-167

11. Kollektivə adaptasiya pedaqoji-psixoloji problem kimi // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, Bakı, 2012, №1, s.140-143

12. Kiçik məktəbli yaşı dövründə təlim fəaliyyətinin motivləşməsinin təzahür xüsusiyyətləri və bu motivləşmədə müəllimin rolu // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri. Fundamental, humanitar və təbiət elmləri seriyası, Bakı 2012,№3, s. 207-211

13.Müasir dərs prosesində təlim fəaliyyətinin səmərəli təşkilinin müəllim-şagird münasibətlərinin inkişafina təsiri // Psixologiya jurnalı, Bakı, 2013,№1, s.142-149

**Гюнай Салман гызы Кязимова**

# Роль взаимоотношений в коллективной адаптации детей младшего школьного возраста

## РЕЗЮМЕ

Диссертационная работа посвящена одной из актуальных проблем современности – роли взаимоотношений в коллективной адаптации детей младшего школьного возраста. Сегодня, наряду с повышением способностей усвоения знаний учениками в системе образования, достижением успеха в учебе, их адаптация в школьную жизнь, во взаимоотношения со сверстниками, в школьный коллектив проявляется как одна из актуальных проблем.

Диссертация состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Первая глава диссертации под названием **«Педагогико-психологическая сущность проблемы и ее постановка в литературе».** Здесь раскрывается педагогико-психологическая сущность адаптации учеников в педагогический коллектив во время учебного процесса, изучаются основные направления исследования проблемы в работах азербайджанских и зарубежных ученых. Наряду с этим в данной главе анализируются сущность, характерные для возраста темы бесед и взаимоотношений школьников младшего возраста, приводятся и комментируются мнения некоторых известных психологов. Здесь также указывается, что естественные возможности школьников, взаимовлияние их внутренних потребностей и внешних факторов играют важную роль в формировании их как личности, а также в коллективной адаптации учеников.

Во второй главе диссертации **–«Психологические особенности взаимоотношений младших школьников в процессе деятельности и коллективной адаптации» –** изучаются проблемы взаимоотношений младших школьников со своими сверстниками и вопросы их коллективной адаптации, ее влияния, взаимозависимость межличностных отношений и учебной деятельности, психологические особенности взаимоотношений в процессе совместной деятельности, роль эмпатии в построении взаимоотношений и в процессе адаптации.Отмечается, что психологическая среда, сформированная в педагогическом коллективе, играет важную роль в адаптации младших школьников к школьной жизни. В случае отсутствия эмоциональной эмпатии у взрослых, а также у сверстников, т.е. когда школьники боятся быть непонятыми, у них постепенно проявляются негативные признаки поведения.

В заключительной части диссертации обобщаются основные результаты исследования. Можно сделать вывод, что коллективная организация учебных заданий для младших школьников и получение таким образом общих результатов в процессе совместной деятельности создают необходимость их вступления во взаимоотношения со сверстниками. В зависимости от характера работы у них формируются такие качества, как товарищество, доброжелательность, прямота, активность. Учет этих факторов создает почву для успешной адаптации младших школьников в школьный коллектив.

**Gunay Salman Kazimova**

**Role of mutual relations in collective adaptation of younger school age childrens**

**SUMMARY**

Dissertational work is devoted to one of actual problems of the modernity – the roles of mutual relations in collective adaptation of children of younger school age. Today, along with increase of abilities of mastering of knowledge by pupils in an education system, achievement of success in study, their adaptation during a school life, in mutual relations with contemporaries, in school collective is shown as one of actual problems.

The dissertation consists of the introduction, two chapters, the conclusion and the list of the used literature.

First chapter of the dissertation is named **"Pedagogikally-psychological essence of a problem and its statement in the literature".** There are studied pedagogikally-psychological essences of adaptation of pupils in pedagogical collective during educational process here reveals the basic directions of research of a problem in works of the Azerbaican and foreign scientists. Along with it in the given chapter are analyzed essence, characteristic for age of a theme of conversations and mutual relations of schoolboys of younger age, opinions of some known psychologists are resulted and made comments. Here too it is underlined, that natural possibilities of schoolboys, interference of their internal requirements and external factors play the important role in their formation as persons, and also in collective adaptation of pupils.

In the second chapter of the dissertation **– "Psychological features of mutual relations of younger schoolboys in the course of activity and collective adaptation" -** are studied problems of mutual relations of younger schoolboys with the contemporaries and questions of their collective adaptation, its influence, interdependence of interpersonal relations and educational activity, psychological features of mutual relations in the course of coint activity, an empathy role in construction of mutual relations and in the course of adaptation. The psychological environment generated in pedagogical collective is noticed, that, plays the important role in adaptation of younger schoolboys to a school life. In case of absence of emotional empathy at adults, and also at contemporaries i.e. when schoolboys are afraid to be not understood, at them negative signs of behaviour are gradually shown.

In a final part of the dissertation the basic results of research are generalised. It is possible to draw a conclusion, that the collective organisation of educational tasks for younger schoolboys and reception thus the general results in the course of coint activity create necessity of their introduction into mutual relations with contemporaries. Depending on a kind of work at them such qualities, as association, goodwill, frankness, and activity are formed. The account of these factors creates soil for successful adaptation of younger schoolboys in school collective.

Sifariş N 1005; tiraj 100
“MBM” nəşriyyatının mətbəəsində
çap olunmuşdur